Cəfərova Ətrabə Şirastan qızı [23]

ÜZEYİR HACIBƏYOVUN YARADICILIĞI VƏ MAARİFÇİLİK FƏALİYYƏTİ

Hələ XIX əsrin əvvəllərində feodalizmin çürümə prosesinin şiddətlənməsilə əlaqədar olaraq Azərbaycanda feodalizm və onun ayrı-ayrı təzahürləri əleyhinə çıxan maarifçilik hərəkatı təşəkkülə başlamışdı.Həmin dövr maarifçiliyini tədqiqatçılar iki baxımdan izaha çalışırlar: həm dar mənada, həm də geniş mənada.

Maarifçilik geniş mənada xalqı maarifləndirmək, xalq kütlələri içərisində mədəniyyəti, elmi, sənəti yaymaq, xalqın şüurunu dini və başqa mövhumi görüşlərdən azad etmək deməkdir. Lakin "maarifçilik" istilahının bundan başqa da bir mənası var. Maarifçilik eyni zamanda, təhkimçiliyi, feodalizm quruluşunu və onun ictimai-iqtisadi normalarını, siyasi təsirlərini, məfkurəvi - mədəni ağalığını ləğv etmək uğrunda aparılan mübariz bir hərəkatdır.

İlk Azərbaycan maarifçiləri XIX əsr boyunca özünün iki inkişaf dövrünü – ilkin təşəkkül və yetkinlik mərhələsini keçirən maarifçiliyi sağlam təməllər üzərində inkişaf etdirərək sonrakı mərhələdə bu sahədə xidmətə qoşulan ziyalılarımıza ləyaqətlə təhvil verə bildilər. Məhz ilk maarifçilərin başlatdığı bu hərəkatın layiqli davamçılarından biri də Üzeyir Hacıbəyov oldu.

Azərbaycan ictimai fikir tarixində özünəməxsus yer tutan görkəmli şəxsiyyətlərdən biri də dahi bəstəkar, milli operamızın banisi, istedadlı yazıçı, jurnalist, görkəmli pedaqoq, uşaqlar üçün dərslik müəllifi, musiqi məktəbinin və konservatoriyanın təşkilatçısı Üzeyir bəy Hacıbəyovdur.

Böyük bəstəkar Azərbaycan musiqisinin ən yaxşı ənənələrini inkişaf etdirərək onu dünya səhnəsinə çıxarmışdır. Üzeyir bəyin ana laylası qədər həzin, eləcə də emosional musiqisini dinləyən hər kəs özünü, mənsub olduğu xalqı daha dərindən dərk edir, mənəvi-estetik cəhətdən zənginləşir. Çünki onun əsərlərinə insan qəlbini riqqətə gətirən, onda nəcib hisslər tərbiyə edən melodiklik və zəriflik xasdır. Uşaqlıq illərini musiqimizin beşiyi Şuşada keçirib, burada ikisinifli rus-tatar məktəbini bitirib, daha sonra tanınmış maarif ocağı Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasında (1899-1904) təhsil alıb. Ü.Hacıbəyovun dünyagörüşünün formalaşmasında Qori Müəllimlər Seminariyasının böyük rolu olub. Təhsil illərində o, dünya mədəniyyəti ilə yaxından tanış olub, rus və Avropa musiqiçilərinin əsərlərini mənimsəyib, skripkada, nəfəsli alətlərdə çalmağı öyrənib. Seminariyanı bitirdikdən sonra Cəbrayıl qəzasının Hadrud kəndinə müəllim təyin olunub, burada o, rus dili, hesab, tarix, nəğmə və musiqi fənlərini tədris edib. Bakı şəhərinə gəldikdən sonra Bibiheybət məktəbində ibtidai sinif müəllimi kimi fəaliyyətini davam etdirib. Üzeyir bəy "Səadət" məktəbində dərs dediyi dövrdə "Rustürk və türk-rus lüğəti", "Hesab məsələləri" kitablarını nəşr etdirib.

Ü.Hacıbəyov "İkinci il", "Məktəb məsələsi", "Müəllim ictimaiyyəti haqqında" məqalələrində hamılıqla ümumtəhsil hüququnu müdafiə edərək, tədris və təhsilin elmi-pedaqoji əsaslar üzərində qurulmasının zəruriliyini vurğulayırdı. O, təhsildə əsas yeri şüurluluq, sistemlilik, xəlqilik prinsiplərinə verirdi. "Dilimizi hansı vasitələrlə öyrənək və zənginləşdirək" adlı məqaləsində müəllif təhsilin ana dilində aparılmasının əhəmiyyətindən, dilimizin yad ünsürlərdən təmizlənməsinin vacibliyindən yazırdı.

O, "Xəbərdarlıq" məqaləsində milli məktəblər, maarif məsələlərinə toxunaraq yazırdı: "Müəllimlik vəzifəsi çox çətin və məsuliyyətlidir. Hər adam onun öhdəsindən gələ bilməz, özünü müəllim adlandıran hər kəsə uşaqları tapşırmaq böyük bir xətadır. Təlimdən başqa uşaqların tərbiyəsi də müəllimin öhdəsindədir. Tərbiyə işində cüzi bir səhlənkarlıq uşağın gələcəyini poza bilər". Digər məqaləsində Qori Seminariyasından bəhs edərək, Azərbaycan şöbəsinin Bakı, Tiflis və ya Şamaxıya köçürülməsinin zəruriliyini qarşıya qoyub.

Ü.Hacıbəyov "Ordan-burdan" sərlövhəli felyetonunda ermənilərin başqalarına aid olanları öz adlarına çıxarmalarına ironiya ilə yanaşır, onların işinin böhtan və ya təqlid olduğunu vurğulayır. Bu yazını oxuyarkən bu gün də ermənilərin Azərbaycan mədəniyyətinin incilərinə təcavüzü yada düşür, böyük bəstəkarın uzaqgörənliyini və onlar haqqında yazdığı həqiqətləri bir daha təsdiqləyir.

Üzeyir bəy pedaqoji fəaliyyəti zamanı şagirdlərin dərs vəsaiti baxımından çətinlik çəkdiklərini görür və bu problemin aradan qaldırılması üçün çalışırdı. 1908-ci ildə tərtib etdiyi "Hesab məsələləri" dərsliyi Orucov qardaşları mətbəəsində dərc olunub. Dərslik 3 hissədən (birrəqəmli ədədlər, yuvarlaq onluqlar, ikirəqəmli ədədlər) ibarət olub, bura daxil edilmiş məsələlər pedaqoji tələblərə cavab verən ardıcıllıqla düzülüb. O dövrün pedaqoqları bu dərsliyi Azərbaycan məktəbləri üçün faydalı və lazımlı vəsait hesab ediblər. Dərslik M.Ə.Rəsulzadənin də diqqətini çəkib və "Tərəqqi" qəzetində onun haqqında məqalə dərc etdirib. M.Ə.Rəsulzadə kitabın tətbiqini tövsiyə edərək yazırdı: "...104 səhifədən ibarət təmiz və aydın surətdə asan Azərbaycan sadə türkcəsiylə tərtib olunmuş "Hesab məsələləri" adında bir kitab nəşr olunmuşdur. Mühərrirlərimizdən müəllim Üzeyir Hacıbəyov cənablarının bu əsəri ibtidai məktəblərin 1-ci və 2-ci şöbələri şagirdlərindən ötrü lüzumlu bir dərs kitabıdır...".

Ü.Hacıbəyovun yaradıcılığı zəngin və çoxcəhətlidir. Onun ecazkar sənət əsərləri milli musiqi mədəniyyətimizin zərif incilərıdir.

Ü.Hacıbəyovun librettoları humanist mənalarına və bədii keyfiyyətinə görə sərbəst dram əsərləridir. "Arşın mal alan", "O olmasın, bu olsun" dərin insani duyğuları ifadə edən, dolğun ictimai tiplər yaradan gözəl səhnə əsərləridir, müxtəlif dillərə tərcümə olunub, səhnədə müvəffəqiyyətlə tamaşaya qoyulub, dəfələrlə filmlər çəkilib.

1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş "Azərbaycan marşı" 1992-ci ildən Azərbaycan Respublikasının Dövlət Himni kimi qəbul edilib.

[23] ADPU-nun Ağcabədi filialının müəllimi etrabe.ceferova@agcebedi.adpu.edu.az

Onun şah əsəri "Koroğlu" operası türk xalqlarının qəhrəmanlıq əfsanəsi olan eyniadlı dastanından epizodlar əsasında hazırlanıb, Azərbaycan mədəniyyəti və incəsənəti tarixində özünəməxsus layiqli yer tutur.

Ü.Hacıbəyov Azərbaycan gəncliyini savadlı, hərtərəfli inkişaf etmiş, seçdiyi sahədən asılı olmayaraq yüksək peşəkar mütəxəssis kimi görmək arzusunda idi.O, müəllim adını şərəflə daşıyaraq, bilik və bacarığını böyük həvəslə tələbələrinə çatdırırdı.Ü.Hacıbəyov həm də böyük musiqişünas alim olmaqla, musiqiyə dair çoxlu məqalələr yazmış, tədqiqatlar aparmışdır.

Üzeyir bəy bütöv bir istedadlı bəstəkarlar, ifaçılar nəsli yetişdirib. Zəmanəsinin böyük və dünyaşöhrətli musiqi xadimlərindən olan Qara Qarayev, Fikrət Əmirov, Soltan Hacıbəyov, Niyazi və başqaları onun yetirmə və tələbələridir.

Maarifçi dünyagörüşə malik olan Üzeyir Hacıbəyov yaxşı bilirdi ki, xalqın nicatı onun təhsilində, elmin və mədəniyyətin inkişafında və bu dəyərlərə ləyaqətlə yiyələnməklə mümkündür. Xalqın təhsillənməsi isə öz ana dilində məktəblərin var olması, dilinin saflığının qorunması ilə mümkün ola bilərdi.

Hələ 1906-cı ildə "İrşad" qəzetində Üzeyir bəy dilimiz haqqında yazırdı: "...Halbuki bizim türk lisanımız Avropa üləma və filosoflarının rəyinə nəzərən ən vəsi və kamil bir dildir ki, onun vasitəsilə insan ən ali fikirlərini və ən dəqiq hisslərini bəyanə qadirdir. Belə bir zəngin lisanın sahibi olub da onunla istifadə etməməyin özü böyük bir bədbəxtlikdir ". Həm böyük sənətkarımızın, həm də Avropa alim və yazıçılarının çox yüksək qiymət verdikləri Azərbaycan dilinin bayağılaşdırılmasına göz yuma bilərikmi? Buna haqqımız varmı? Düşünürük ki, buna mənəvi hüququmuz çatmır.

Ü. Hacıbəyli yazırdı: " Ana dilimizə əhəmiyyət verməsək, ola bilər ki, bir gün dilimiz itər-batar, yox olar və bir millətin də ki, dili batdı , o millətin özü də batar, çünki bir millətin varlığına, yaşamasına isbat vücud onun dilidir". *("Həqiqət" qəzeti, 24-25 yanvar 1910- cu il)*

Üzeyir bəy Hacıbəyli öz məqalələrində dəfələrlə ana dilimizin saflığı məsələsinə, bu dilin yad sözlərdən təmizlənməsinə, sırf Azərbaycan türkcəsi olmasına çalışmışdır. Bu xüsusda onun "Bir xanım əfəndinin bizlərə hüsni - təvəccöhi" məqaləsi maraqlıdır. 20 yaşlı mühərrir bu məqaləni 1905-ci il 10 sentyabr tarixli "Həyat" qəzetinin 62-ci sayında "Üzeyir" imzası ilə dərc etdirmişdir. Burada gənc jurnalist "Peterburqskiye vedemosti" qəzetində Maqda Neyman adlı bir yazarın ana dilimiz əleyhinə yürütdüyü həyasız böhtana öz nifrətini bildirmiş, ona kəskin cavab vermişdir.

Ana dilinin tədrisini irəli sürərək Üzeyir bəy Hacıbəyli bir-birinin ardınca üç məqalə yazmışdır. Bu məqalələr "Hansı vasitələr ilə dilimizi öyrənib kəsbi-maarif etməliyik" sərlövhəsi altında "İrşad" qəzetinin 1906-cı il 15, 16, və 20 fevral tarixli saylarında "Üzeyir bəy Hacıbəyov" imzası ilə dərc edilmişdir. Bu məqalələrdə Üzeyir bəy ana dili haqqında çox qiymətli fikirlər irəli sürmüşdür. Ədib ana dilini bilməyənləri istehza ilə "zavallı" adlandırır və bu qisim insanlara ana dilini öyrənmək üçün yollar göstərir. Və bir daha xüsusi olaraq vurğulayır ki, "...Avropa dillərinə vaqif olan zat, öz dilini də mükəmməl surətdə bilsə, hər bir cəhətdən millətə artıq nəf gətirər".

Təbii ki, Üzeyir bəy heç vaxt çox dil bilməyin əleyhinə olmamışdır. Lakin öz doğma dilini bilməyib ərəb, fars, rus, ingilis, fransız dillərində "bülbül kimi ötənlərə" istehza ilə gülmüş, buna qarşı barışmaz olmuşdur. Böyük sənətkar özü Azərbaycan dilini, təhsil aldığı rus dilini bütün incəlikləri ilə bilməklə yanaşı, bir neçə dilə - ərəb, fars, türk, tatar, gürcü, ləzgi,fransız dillərinə də bələd olmuş, bu dillərdə sərbəst danışmışdır. Ona görə də dil məsələsinə tez-tez müraciət etmiş, Azərbaycan türkcəsini mükəmməl öyrənmək üçün xalqına faydalı məsləhətlər vermişdir. Üzeyir bəy özünün " Üsuli - təbii "(Müəllim Əli cənablarına müxtəsər cavab) yazısında qeyd edirdi :" Qafqazda türk dilini mükəmməl bilənlərdən Əli bəy Hüseynzadə cənabları dəfələrlə qəti surətdə elan etmişdir ki, türk dilində "hansı ki", "hansılar ki" sözü yoxdur. Mən də deyirəm ki, bu sözü tərcümə üsulu ilə dərs verən müəllimlər rusun "kotorıy" kəlməsini tərcümə etmək üçün özlərindən çıxardıblar, onun istemalı lüzumsuz bir ağırlıqdır". Qəribədir ki, qeyd etdiyimiz bu fikirlərin üstündən bir əsrdən çox zaman keçməsinə baxmayaraq, bu gün də həmin ifadələr işlənir. Elə "belə deyək " kəlməsi də o qəbildən olan bir ifadədir. Belə çıxır ki, söz sərrafları olan ustadlarımızın bizim üçün örnək ola biləcək fikirlərini qulaqardına vurmuşuq.

Üzeyir bəy Hacıbəyli "Yeni üsuli - təbii haqqında bir neçə söz" *(Tərəqqi" qəzeti, 6, 8 mart 1909),* " Üsuli - təbii " *("Tərəqqi"qəzeti, 1 aprel 1909),* "Dilimizi korlayanlar" *("İqbal" qəzeti, 16 oktyabr 1912)* və s. məqalələrində ana dili məsələlərindən geniş bəhs etmişdir.

Müsəlman Şərqində sözün əsl mənasında milli bəstəkarlıq ənənəsinin məhz Azərbaycanda meydana gəlməsi bir tərəfdən obyektiv tarixi şərtlər, sosial-mədəni kontekst ilə bağlı idisə, digər tərəfdən subyektiv faktor olan Üzeyir Hacıbəyli fenomeni ilə şərtlənirdi. Bəstəkarın musiqi sahəsindəki zəhmət və canatımlarının ilk böyük bəhrəsi "Leyli və Məcnun" operası oldu: 1908-ci il yanvarın 25-də Bakıda H.Z.Tağıyevin teatrında ilk tamaşası baş tutan bu əsərlə yalnız Azərbaycanda deyil, bütün Şərq aləmində opera sənətinin təməli qoyulmaqla musiqi mədəniyyəti tariximizdə yeni bir dövr açıldı.

1909-1915-ci illərdə Ü.Hacıbəyli bir-birinin ardınca librettolarını xalq dastanları və rəvayətlər əsasında yazdığı "Şeyx Sənan" (1909), "Şah Abbas və Xurşidbanu" (1912), "Əsli və Kərəm" (1912), "Harun və Leyla" (1915) operalarını ərsəyə gətirir. "Rüstəm və Söhrab" (1910) operasının əsasını isə Firdovsinin "Şahnamə" əsərinin motivləri təşkil edir. Bu əsərlərin hamısında Üzeyir bəy muğamdan, aşıq musiqisindən geniş istifadə edib.

Sovet dövründə mədəni-maarif işinin musiqi sahəsində geniş vüsət alması ilə maarifçilik hərəkatı sanki yeni bir təzahür tapırdı. Opera ilə yanaşı, Azərbaycan dramaturgiyasında da mühüm rol oynayan Üzeyir Hacıbəyli musiqili komediya janrında "Ər və arvad" (ilk tamaşası - 1910), "O olmasın, bu olsun" (ilk tamaşası - 1911), "Arşın mal alan" (1913) musiqili komediyalarını da ərsəyə gətirmiş, mətnlərini də özü yazmışdı. O həm bəstəkar, həm də dramaturq kimi, ilk növbədə, Azərbaycan maarifçiliyinin nümayəndəsi kimi çıxış edir və vurğulayırdı ki, "mən, demək olar ki, Axundovun komediyaları "Xan Sarabi", "Məstəli şah", "Hacı Qara" və məşhur dramaturqumuz Ə.Haqverdiyevin "Dağılan tifaq" əsərləri üzərində böyümüşəm". Onun opera və musiqili komediyalarının doğurduğu ictimai əks-sədanı əsərlərin musiqisi ilə yanaşı, toxunduğu məsələlərin aktuallığı da şərtləndirirdi. Bu əsərlərdə dövrün məişəti, xalqın adət-ənənələri də əksini tapırdı.

Üzeyir Hacıbəylinin 1903-1948-ci illəri əhatə edən publisistik yaradıcılığının ən yaddaqalan dövrü, yəqin ki, 1918 - 1920-ci illərdir. Bu iki il ərzində ərsəyə gətirdiyi publisistik yazılar sonradan sovet hakimiyyəti illərində yasaq edilərək xalqdan gizlədilmişdir. Azərbaycanın müstəqillik dönəmində Üzeyir bəy sevinc və fərəh hissi ilə hər gün aktual və maraqlı yazılarla "Azərbaycan" qəzetində çıxış etmiş, əvvəlcə müxbir, parlament müxbiri kimi, ardınca isə qəzetin redaktoru kimi çoxlu sayda məqalə və felyetonları dərc olunmuşdur. "Nuru Paşa həzrətləri şərəfinə böyük ziyafət", "Partiyalarımıza", "Azərbaycan parlamanı", "Andranikin məsələsi", "İstiqlal və istiqbal ümidi", "Qarabağ haqqında", "Ermənistan və Azərbaycan münasibəti", "Qarabağ hadisatı", "Erməni-gürcü münasibəti", "Ordumuz", "Bayrağımız sarsılmaz", "Rusiya əhvalı", "İçimizdəki denikinlər", "Milliləşmək", "Məmləkətimizin halı nasıldır?" və s. yazılarında Üzeyir bəy onu narahat edən, düşündürən ictimai və siyasi məsələlərdən bəhs etməklə xalqın səsinə çevrilməyə, millətin hiss və düşüncələrini əks etdirməyə nail olmuşdur.

"Azərbaycan jurnalistikası tarixində elə şəxsiyyətlər var ki, onların mətbu fəaliyyətlərini araşdırmaqla tarixin konkret bir dövrünün həqiqət və gerçəkliklərini ortaya qoymaq mümkündür. Azərbaycan müstəqillik əldə etdikdən sonra, yəni mənəvi dəyərləri qlobal surətdə yenidən qiymətləndirmə dövründə bu klassiklərə və onların yaradıcılıq fəaliyyətlərinə yenidən nəzər salınmağa başlanıldı. Azərbaycanda yenidən latın qrafikasına keçid ədəbi-bədii irsin yenidən tədqiqi üçün imkanlar yaratmaqla mətbuatın, eləcə də publisistikanın istər mövzu-ideya, istərsə də sənətkarlıq baxımından yeni baxış bucağından araşdırılması zərurətini və hər şeyə obyektiv tarixi qiymət vermək kimi təxirəsalınmaz vəzifəni ortaya qoydu (7, s.14).

Üzeyir Hacıbəylinin - "Kaspi"dən tutmuş, "Azərbaycan"a qədər olan - publisistikasını izləsək, görərik ki, bu irsin ictimai xarakteri, janr palitrası, mövzu rəngarəngliyi və toxunduğu problemlərlə çağdaş dövrümüzün gerçəklikləri arasında bir bağlılıq, paralellik özünü göstərir. Yəni bu irslə müasir dövrümüz arasında maraqlı tarixi paralellər axtarmaqla xalqı, milləti düşündürən suallara cavab tapmaq, tarixi həqiqətlərə nail olmaq mümkündür. Bir sözlə, Ü.Hacıbəylinin həyat yolu və onun zəngin fəaliyyəti, yüz il keçməsinə baxmayaraq, bizim üçün reallıq, əsərləri günümüzün gerçəkliyi, dövr, zaman fərqli olsa da, qaldırdığı məsələlər də eynisi ilə bizi bu gün də düşündürən problemlərdir.

"Üzeyir Hacıbəyov o cür xoşbəxt sənətkarlardan və ictimai xadimlərdəndir ki, zaman keçdikcə böyüklüyü, fəaliyyətinin mütərəqqi və humanist mənası daha parlaq şəkildə gözə dəyməkdədir. Onun zəngin irsi indi də diqqəti cəlb edir və mündəricə genişliyi, dərin mənası ilə bizi heyran buraxır". Ü.Hacıbəyli çıxış etdiyi mətbuat orqanlarının bir çoxunda həm jurnalist və publisist kimi, həm də redaktoru kimi fəaliyyət göstərir ki, bu da Azərbaycan mətbuatı tarixində onun bir redaktorluq məktəbi yaratması kimi qiymətləndirilə bilər" (8, s.7).

Üzeyir bəy Hacıbəylinin Cümhuriyyət dövrü yazılarında dövrünün ən mühüm problemlərinin, o cümlədən, suveren dövlət və müstəqillik, demokratiya, milli maarifçilik, azad söz və mətbuat, vicdan azadlığı, erməni məsələsi, Qarabağ problemi kimi məsələlərin diqqət mərkəzində saxlanılması ilə birgə bu problemlərin çözülməsi ilə birgə məsələlərin dərin siyasi mahiyyəti ilə bağlı nəzəri fikirləri də maraq doğurur.

Ədibin "Nə istiyorlar" , "Siyasi imtahan", "Xatimə", "İçimizdəki denikinlər", "Qarabağ hadisatı", "Səddi-İsgəndər" və eləcə də tarixi həqiqətləri özündə əks etdirən yüzlərlə yazıları bu gün Azərbaycan haqqında yazılan böhtan və iftiralara, tarixi təhriflərə qarşı Azərbaycan ziyalılarının istinad etdikləri tutarlı cavablar və faktlardır.

"Ü.Hacıbəylinin dövlətinə, vətəninə, millətinə, bayrağına sonsuz sevgisinin təcəssümü olan "Bayrağımız sarsılmaz" məqaləsi zülm və əsarətin yoğun zəncirlərini qırıq-qırıq etməyə qadir olmuş bir millətin, gənc Azərbaycan dövlətinin haqq və azadlıq rəmzini özündə daşıyan üçrəngli bayrağımıza həsr olunmuşdur.

Ədib sağ və sol düşmənlərimizin xain gözlərini qamaşdıran müqəddəs bayrağımızın üç rəngini göylərə qaldıran ağacın iti bir ox olub alçaq düşmənlərimizin qara qəlblərini deşməsilə namərd belini sındırıb alçaq başları əydirmək üzrə olduğunu mübariz bir ruhla qeyd edir: "O ağac sınmaz, o nur sönməz, o əl dönməz!!! Çünki bayrağımız həqq bayrağıdır.O, bir millətin hüquqi-bəşəriyyəsinin harisidir. Bir millət ki, onun da insan kimi yaşamaqa haqqı vardır! Bir millət ki, daha əsir olmaq istəmir!"(9, s.5).

Ü.Hacıbəyli və onun əqidə və məslək yoldaşlarının vaxtilə yüksəltdikləri üçrəngli bayraq 70 ildən sonra yenidən xalqın müstəqillik, suverenlik, milli azadlıq uğrunda mübarizəsində Azadlıq meydanında dalğalanaraq xalqı yenidən öz müstəqilliyini əldə etməsi yolunda sıx birləşdirdi.

İstifadə olunmuş ədəbiyyat:

1. Ü. Hacıbəyov. "Azərbaycan" qəzeti, 1 dekabr 1918-ci il
2. Ü. Hacıbəyov."Həqiqət" qəzeti, 24-25 yanvar 1910- cu il
3. Ü. Hacıbəyov. "Yeni üsuli - təbii haqqında bir neçə söz". Tərəqqi" qəzeti, 6, 8 mart 1909
4. Ü. Hacıbəyov. "Üsuli - təbii ". "Tərəqqi"qəzeti, 1 aprel 1909
5. Ü. Hacıbəyov. "Dilimizi korlayanlar" . "İqbal" qəzeti, 16 oktyabr 1912
6. Ələkbər Məmmədov, "Nur karvanı" kitabı, Bakı - 2003, səh. 138.
7. Babayeva, G. Üzeyir bəy Hacıbəylinin publisistik irsinə bir baxış / 525-ci qəzet. 2019. 13 sentyabr. Səh.14
8. Fərəcova, Z. Vətən sevgisini musiqi dilinə çevirən bəstəkar / Zöhrə Fərəcova // Azərbaycan. 2019. 19 sentyabr.- Səh. 7.
9. Orsər, R. Üzeyir Hacıbəyli publisistikasının cazibəsi və Şirməmməd Hüseynov fədakarlığı / Ramiz Ədalət. Bakı, 2020. 5 may. Səh.5.

Xülasə:

Azərbaycan ictimai fikir tarixində özünəməxsus yer tutan görkəmli şəxsiyyətlərdən biri də dahi bəstəkar, milli operamızın banisi, istedadlı yazıçı, jurnalist, görkəmli pedaqoq, uşaqlar üçün dərslik müəllifi, musiqi məktəbinin və konservatoriyanın təşkilatçısı Üzeyir bəy Hacıbəyovdur.

Böyük bəstəkar Azərbaycan musiqisinin ən yaxşı ənənələrini inkişaf etdirərək onu dünya səhnəsinə çıxarmışdır. Üzeyir bəyin ana laylası qədər həzin, eləcə də emosional musiqisini dinləyən hər kəs özünü, mənsub olduğu xalqı daha dərindən dərk

edir, mənəvi-estetik cəhətdən zənginləşir. Çünki onun əsərlərinə insan qəlbini riqqətə gətirən, onda nəcib hisslər tərbiyə edən melodiklik və zəriflik xasdır.

Ü.Hacıbəyov Azərbaycan pedaqoji fikir və təhsil tarixində silinməz iz qoymuş, müstəsna zəka sahibi, musiqi mədəniyyətimizin korifeyi, görkəmli bəstəkar, maarifçilik ideyalarının carçısı, xalqına sədaqətlə xidmət edən böyük müəllim və alim, müdrik, nəcib insan kimi yaddaşlarda qalacaqdır.

Açar sözlər: *Üzeyir Hacıbəyov, bəstəkar, publisist, maarifçi, ictimai xadim, müsiqiçi, müəllim, alim, müdrik insan, xeyirxah insan, sənətkar və s.*

ТВОРЧЕСТВО И ПРОСВЕТИТЕЛЬСКАЯ ДЕЯТЕЛЬНОСТЬ УЗЕИРА ГАДЖИБЕКОВА

Резюме:

Узеир-бек Гаджибеков – гениальный композитор, основоположник нашей национальной оперы, талантливый писатель, журналист, выдающийся педагог, автор учебников для детей, организатор музыкальной школы и консерватории – одна из выдающихся личностей, занявшая особое место в истории Общественное мнение Азербайджана.

Великий композитор развил лучшие традиции азербайджанской музыки и вывел их на мировую сцену. Каждый, кто слушает колыбельную Узеир-бея, такую же грустную, как колыбельная его матери, глубже понимает себя и людей, к которым он принадлежит, духовно и эстетически обогащается. Потому что его произведениям свойственна мелодичность и элегантность, успокаивающая человеческое сердце и питающая благородные чувства.

У.Гаджибекова будут помнить как великого педагога и учёного, верно служившего своему народу, мудрого и благородного человека, оставившего неизгладимый след в истории педагогической мысли и образования Азербайджана, обладателя исключительного ума, корифея нашего музыкального искусства. культуры, выдающийся композитор, предвестник просветительских идей.

Ключевые слова: *Узеир Гаджибеков, композитор, публицист, просветитель, общественный деятель, музыкант, педагог, учёный, мудрец, добрый человек, художник и т.д.*

CREATIVITY AND EDUCATION ACTIVITY OF UZEYIR HAJIBAYOV

Summary:

Uzeyir Bey Hajibeyov, a genius composer, founder of our national opera, talented writer, journalist, outstanding pedagogue, author of textbooks for children, organizer of music school and conservatory, is one of the outstanding personalities who has a special place in the history of Azerbaijan public opinion.

The great composer developed the best traditions of Azerbaijani music and brought it to the world stage. Everyone who listens to Uzeyir Bey's lullaby, as sad as his mother's lullaby, gets a deeper understanding of himself and the people he belongs to, and becomes spiritually and aesthetically enriched. Because his works are characterized by melodiousness and elegance that soothes the human heart and nurtures noble feelings.

U. Hajibeyov will be remembered as a great teacher and scientist who faithfully served his people, a wise and noble person who left an indelible mark on the history of pedagogical thought and education in Azerbaijan, a possessor of exceptional intelligence, a luminary of our musical culture, an outstanding composer, a harbinger of enlightenment ideas.

Keywords: *Uzeyir Hajibeyov, composer, publicist, educator, public figure, musician, teacher, scientist, wise person, kind person, artist, etc.*

RƏYÇİ:dos. E.Vəliyevea